

**JADIRA BAYBULANOVA –**

*9 dekabr 1990-cı ildə Karaqanda vilayətinin Qarqaralı rayonunun Janatoğan kəndində doğulub. Akademik E.A.Böketov adına Karaqanda Dövlət Universitetinin məzunudur.*

*Uluslararası "Şabıt" şeir yarışmasında ödül qazanıb.*

*Şeirləri dövri mətbuatda ardıcıl olaraq yayınlanır.*

***

Bugün yaman darıxıram,
O dağdakı səs-ün üçün.
Sakit, ulduzlu gecədə,
sadəcə tək sənin üçün.

Dağda çatılan ocağın,
atəşi bizi isitdi.
Mən utanıb gülümsədim,
xəyalım uzağa getdi.

Mən atəşi söndürmüşəm,
yay axşamı, həmin gecə.
O anlarçün, o günlərçün,
darıxmışam, bilsən, necə.

***

İndi mən
sadiq dostluğa
inanmıram.
Onlar keçmişdə qaldı.
Kömək təklif edənlər
səmimi deyillər heç.
Ağlım deyir
onları boş ver, keç.
Əgər kimsə mənə
sevgisini bildirərsə,
yox, yox,
inanmaram mən.
Ah, məhəbbət, məhəbbət!...
Ey ulu Tanrım, məni
bu bəladan hifz eylə.
Qoyma saçlarıma
vaxtsız düşə dən...

***

Mənim xoşuma gəlir,
göz yaşlarım və ahım.
Mənim xoşuma gəlir,
etdiyim hər günahım.

Mənim xoşuma gəlir,
sənin məni sevməyin.
Mənim xoşuma gəlir
mənə ümid verməyin.

Mənim xoşuma gəlir,
uzaq yola çıxmağım.
Mənim xoşuma gəlir,
səninçün darıxmağım.

Mənim xoşuma gəlir,
sürətlə keçən zaman.
Mənim xoşuma gəlir,
gözlədiyim xoşbəxt an.

Mənim xoşuma gəlir.
Sənin əlçatmazlığın.
Mənim xoşuma gəlir.

**(Rəsmiyyə SABİR *çevirib*)**